*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  30 dekabr 2018-ci il  № 101 (2317)  Qiyməti 25 qəpik


Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq



"Dağlıq Qarabağ və onun ətrafında yerləşən digər işğal edilmiş torpaqlar bizim əzəli, tarixi torpaqlarımızdır və bu, bu gün belədir, sabah da belə olacaq".

Bu sözləri Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksində çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev qeyd edib.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq.

"Ermənistanın işğalçılıq siyasəti onları ağır vəziyyətdə qoyub. Bu gün bunu həm dünya görür, həm də regionda baş verən hadisələr bunu göstərir. Ermənistanda uzun illər ərzində - 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal rejim çökdü. Bunun başlıca səbəbi onların işğalçılıq siyasətidir. Çünki biz qarşıya vəzifə qoymuşduq ki, bu kriminal rejim çökməlidir və buna nail olduq. Bütün vasitələrdən istifadə edərək buna nail olduq. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Ermənistanda kriminal, rüşvətxor xunta rejiminin çökməsində bizim də payımız var. Nə qədər ki, torpaqlarımız işğal altındadır, ilk növbədə, biz onları təcrid vəziyyətində saxlayırıq və saxlayacağıq."

Ölkə rəhbəri onu da bildirib ki, Ermənistanın kriminal rejiminin süquta uğramasında bizim hərbi qələbələrimiz də önəmli rol oynayıb.

"Biz isə öz gücümüzü, qüdrətimizi artırırıq. Onu da bildirməliyəm ki, Ermənistanın kriminal rejiminin süquta uğramasında bizim hərbi qələbələrimiz də önəmli rol oynayıb. Xüsusilə, aprel döyüşləri və ondan sonra bizim digər uğurlu əməliyyatlarımız nəticəsində Ermənistanın əvvəlki rəhbərliyi tərəfindən öz ordusu haqqında yaradılan mif tamamilə darmadağın edildi. Azərbaycan Ordusu, Azərbaycan əsgəri göstərdi ki, biz döyüş meydanında da qalib gəlirik. Bizim hərbi qələbələrimiz Ermənistanın kriminal rejiminin çökməsində xüsusi rol oynamışdır".

Dövlət başçısı 2019-cu ilin münaqişənin həllində əhəmiyyətli il olacağını da vurğulayıb. "Biz 2019-cu ilə qədəm qoyuruq və ümid edirik ki, bu il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün önəmli il ola bilər. Amma baxacağıq ki, vəziyyət necə inkişaf edir. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Ölkəmizin ərazi bütövlüyü qeyd-şərtsiz təmin olunmalıdır, bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. Bunu ədalət, tarix tələb edir, bunu beynəlxalq hüquq tələb edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz dediyim sözlər öz əksini tapıb ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Biz əlbəttə ki, xarici müstəvidə öz səylərimizi bu istiqamətdə artıracağıq. Bu il həm ikitərəfli təmaslar əsasında mən bir çox ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlarda və imzalanmış sənədlərdə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət göstərilir və münaqişənin bu prinsiplər əsasında həll olunması tələb edilir. Eyni zamanda, Avropa İttifaqı ilə imzalanmış sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox ciddi bəyanatlar var. Yəni, həm tarixi, həm hüquqi əsaslar bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə ki, bu gün Ermənistan və Azərbaycan iqtisadi və hərbi cəhətdən fərqli kateqoriyalarda olan ölkələrdir. Eyni zamanda, bölgədə gedən proseslər, bizim qonşu ölkələrlə münasibətlərimizin möhkəmləndirilməsi regionda vəziyyəti bizim xeyrimizə dəyişdirir. Yəni, bütün bu amillər deməyə əsas verir ki, 2019-cu ildə münaqişə ilə bağlı müəyyən addımlar atılacaq. Hələ ki, bir şey demək tezdir, ancaq bir şey tam aydındır: biz prinsipial mövqeyimizdən çəkilməyəcəyik, öz ərazi bütövlüyümüzün istənilən yolla bərpası bizim suveren hüququmuzdur.

**"Azərbaycan Ordusu"**

### Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edir, Azərbaycanımızın dövlət müstəqilliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsi naminə çətin və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Ümummilli lider Heydər Əliyevin qətiyyətli addımları və uzaqgörənliyi sayəsində müasir, müstəqil Azərbaycan dövlətinin qurulması ilə xalqımızın milli özünüdərkinin daha da güclənməsinə möhkəm zəmin yarandı, dünyada yaşayan soydaşlarımızın həmrəyliyi təmin edildi.

Ulu Öndərin daxili və xarici siyasətini müvəffəqiyyətlə davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində də, dövlətçiliyimizin iqtisadi və siyasi dayaqları daha da möhkəmlənib, demokratik dövlət quruculuğu prosesində böyük nailiyyətlər əldə edilib. Ölkəmizin müdafiə qüdrəti də gündən-günə artmaqdadır. Müasir ordu quruculuğu prosesi uğurla davam etdirilir. Ordumuzun maddi-texniki təminatı və döyüş qabiliyyəti ən yüksək səviyyədədir.

Bu inamlı fəaliyyətlərin məntiqi nəticəsi olaraq iki il öncə Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin may ayında Naxçıvanda Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları sayəsində torpaqlarımızın bir hissəsi və strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad olundu. Həmin yüksəkliklərdə Azərbaycan bayrağı dalğalanır. İrimiqyaslı təlimlərdə peşəkarlığı, döyüş bacarığı artan şəxsi heyət Vətən qarşısında vəzifə borcunu şərəflə və vicdanla yerinə yetirir.

2018-ci il xalqımızın və ordumuzun şəxsi heyətinin yaddaşında əlamətdar tarixi hadisələrlə qaldı. Azərbaycan Ordusunun yaradılmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm paradlar ölkəmizin müdafiə qabiliyyətinin gücü kimi izlənildi.

Bu gün dünya azərbaycanlılarının da ordumuza sevgisi və inamı yüksəkdir, ordu-cəmiyyət əlaqələri daha da möhkəmlənib. Şəhid ailələri, müharibə veteranları və əlilləri, eləcə də, hər bir hərbi qulluqçu Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə əhatə olunub.

Əminliklə bildirirəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə daim sadiq qalaraq, döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, yeni qələbələr əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Əlamətdar bayram günündə Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsini hörmətlə yad edir, müqəddəs amal naminə sağlamlığını itirmiş hərbçilərimizə, onların ailə üzvlərinə, hörmətli veteranlarımıza səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bir daha 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hər birinizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, xidmətinizdə uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV,**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Müdafiə naziri PUA Mütəxəssislərinin Təlim-Tədris Mərkəzinin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.*





Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa edilmiş Pilotsuz Uçuş Aparatları Mütəxəssislərinin Təlim-Tədris Mərkəzinin açılışında iştirak ediblər.

Müdafiə nazirinə məruzə olunub ki, mərkəzin əsas məqsədi Azərbaycan Ordusunun arsenalında olan müxtəlif növ pilotsuz uçuş aparatları (PUA) üzrə yüksək peşəkar kadrların hazırlanmasıdır. Qeyd edilib ki, tədris mərkəzində quraşdırılan ən müasir avadanlıqlar və trenajorlar, həmçinin keçirilən nəzəri və praktiki məşqlər tədris prosesinin yüksək keyfiyyətlə aparılmasına, müxtəlif əməliyyat, taktiki və meteoroloji şəraitdə PUA-ların funksional sistemlərinin təmin edilməsi və PUA heyətlərinin döyüş tapşırıqlarının vaxtında və yüksək dəqiqliklə yerinə yetirilməsi vərdişlərinin təkmilləşdirməsinə imkan verir. Bildirilib ki, mərkəz elmi-texniki işin aparılmasını, bu istiqamətdə qabaqcıl təcrübələrin öyrənilməsini və yeni PUA sistemlərinin sınaq yoxlamalarının keçirilməsini də təmin edir.

Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin mühəndislər, operator-pilotlar, uçuşların təhlili, simulyator, eləcə də digər xidməti və inzibati otaqları ilə tanış olub.

Mərkəzin anqarında saxlanılan yerli istehsal olan müxtəlif təyinatlı PUA-lara və ərazidə quraşdırılmış çoxməqsədli stansiyaya baxış keçirən Müdafiə nazirinə onların taktiki-texniki xassələri və tətbiqi imkanları barədə məruzə olunub.

Sonra Müdafiə naziri mərkəzin maddi-texniki və tədris bazasının genişləndirilməsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyinin tabeliyində olan təşkilatlarda 2018-ci ilin yekunlarına dair toplantılar keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, qoşun növləri və qismlərində, nazirliyin baş idarə, idarə və xidmətlərində, birlik və birləşmələrdə, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində 2018-ci ilin yekunlarına dair toplantılar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlərdə məruzə edənlər il ərzində görülən işlərdən, qazanılan uğurlardan və 2019-cu ildə qarşıda duran vəzifələrdən danışıblar.

Sonda Müdafiə nazirinin müvafiq əmrləri ilə 2018-ci ildə döyüş hazırlığının yekunlarına görə xidmətdə fərqlənən hərbi qulluqçulara fəxri fərmanlar, qiymətli hədiyyələr və digər mükafatlar təqdim olunub.



# Zabit heyətinin təkmilləşdirilməsi kursu uğurla başa çatdı

*Əlahiddə Ümumqoşun Orduda növbəti zabit heyətinin təkmilləşdirilməsi kursu uğurla başa çatdı. Buraxılış mərasiminə hazırlıqla bağlı məruzə edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

Mərasimdə zabit Mehman Gülməmmədov çıxış edərək qeyd etdi ki, kurs zamanı Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində müxtəlif ixtisaslar üzrə dərslər keçirilib, trenajorlarda şəxsi heyətin sürücülük və atəş qabiliyyəti praktiki olaraq artırılıb. Kursa cəlb edilmiş zabitlərin virtual təlim meydançasında mənimsədikləri vərdişlər real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da təkmilləşdirilib.

Məzunlar adından çıxış edən Ziya Şıxəliyev söz verdi ki, kursda qazandıqları taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcək, ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklər.



Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırıldı. Bildirildi ki, Əlahiddə Ümumqoşun Orduda peşəkar hərbçilərin yetişdirilməsinə xidmət edən digər kurslar kimi zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur. Kurslar zamanı hərbi qulluqçuların bilik, bacarıq və peşəkarlıqları daim artırılır. Təbii ki, bütün bunlar da hərb işinə verilən yüksək qiymətin göstəricisidir.

Sonra kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edildi. Kursda peşəkarlığı ilə fərqlənən bir neçə hərbi qulluqçu qiymətli hədiyyə ilə mükafatlandırıldı, baş leytenant Nurlan Hacıyevə kapitan rütbəsi təqdim edildi.

Kurs birincisi Rəşad Məmmədov xatirə lövhəsinə buraxılış emblemini vurdu və zabitlərin növbəti yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı verilən əmr mərasim iştirakçılarına çatdırıldı.

Əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi oldu.

Sonda məzunlarla xatirə şəkli çəkdirildi.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi,**
**fotolar əsgər Turqut KƏRİMZADƏNİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*29 dekabr 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə naziri "Açıq qapı" günündə olub

*Dekabrın 29-da Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə hərbi hissələrdə əsgər valideynləri və yaxınlarının, Milli Məclisin deputatlarının, yerli rayon rəhbərliklərinin, ictimaiyyət nümayəndələri və mədəniyyət işçilərinin iştirakı ilə "Açıq qapı" günü keçirilib.*





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbər heyəti döyüş zonasında yerləşən hərbi hissələrdən birində keçirilən "Açıq qapı" günündə olub.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə keçirilən görüşdə valideynləri maraqlandıran məsələlər müzakirə olunub və onların sualları cavablandırılıb. Əsgər valideynlərini dinlədikdən sonra nazir bir sıra məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

Nazir və digər rəhbər şəxslər əsgər yaxınları, valideynləri ilə birlikdə bayram şənliyində iştirak ediblər.

"Açıq qapı" günündə hərbi hissəyə gələn vətəndaşlar hərbi hissələrdə yaradılan şəraitlə yaxından tanış olub, xidməti və inzibati binalara, əsgər yataqxanaları və yeməkxanaya baş çəkiblər.

Şəxsi heyət üçün təşkil olunan bayram konsertindən sonra Müdafiə naziri hərbi qulluqçular və ziyarətçilərlə birlikdə bayram süfrəsi arxasında nahar ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsinə səfər edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhənin Füzuli istiqamətində yerləşən hərbi hissələrdə olub və şəxsi heyətlə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nazirliyin rəhbər heyəti aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib.




Cocuq Mərcanlı kənd məktəbində müəllim və şagirdlərlə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov onları qarşıdan gələn bayramlar münasibətilə təbrik edərək, məktəblilərə bayram hədiyyələri təqdim edib.

Ön xətdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri müdafiənin dayanıqlığı, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığını yoxlayıb, komanda-müşahidə məntəqəsindən düşmən mövqelərini izləyib.

Çay süfrəsi arxasında əsgərlərlə söhbət etdikdən sonra Müdafiə naziri ön xətdə xidmət edən şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı görülən işlərlə maraqlanıb və müvafiq tapşırıqlar verib.



Bayram münasibətilə şəxsi heyətə təbriklərini və ən xoş arzularını çatdıran general-polkovnik Zakir Həsənov xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandıraraq, onlara qiymətli hədiyyələr təqdim edib.

Sonra Müdafiə naziri cəbhə bölgəsində yerləşən hərbi hospitalda müalicə alan hərbi qulluqçularla görüşərək onların səhhəti ilə maraqlanıb. Nazir hərbi qulluqçulara bayram sovqatları təqdim edib, onların tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.

# Hərbi birlikdə döyüş atışlı gecə təlimi keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı gecə təlimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ssenariyə uyğun olaraq təlimlərə cəlb olunan motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri döyüş atışları icra edib.

# Laçınlı məcburi köçkünlər bayramı əsgərlərlə birgə qeyd ediblər

Ağcabədi rayonunun Taxtakörpü ərazisində məskunlaşan laçınlı məcburi köçkünlər 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramını əsgərlərlə birgə qeyd ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "N" hərbi hissəsində keçirilən bayram tədbirində çıxış edənlər əsgərlər və zabitləri əlamətdar bayramlar münasibətilə təbrik edib, Vətənə xidmətdə uğurlar arzulayıblar. Çıxışlarda ulu öndər Heydər Əliyevin dünya azərbaycanlılarının vahid milli ideologiya ətrafında birləşdirilməsi istiqamətindəki əvəzsiz xidmətlərindən danışılıb, Həmrəylik Gününün əsas məzmununun milli-mənəvi dəyərlərə hörmət, Vətənə bağlılıq və azərbaycançılıq ideyaları olduğu bildirilib.

Laçın rayon mədəniyyət işçilərindən ibarət musiqi kollektivi hərbçilər qarşısında bayram konserti ilə çıxış edib. Rəngarəng musiqi nömrələri, Şaxta baba və Qar qızın çıxışları əsgər və zabitlərdə xoş ovqat yaradıb.

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, dekabrın 29-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirildi.*

*Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış oldular, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkdilər. "Açıq qapı" günü çərçivəsində komandanlıqla valideynlərin görüşlərində hərbi qulluqçuların xidməti ilə bağlı onları maraqlandıran məsələlər müzakirə edildi və sualları cavablandırıldı.*

*Bayram günü münasibətilə şəxsi heyət üçün keçirilən mədəni-kütləvi tədbirlərdə ənənəyə uyğun olaraq ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın işğalçılardan qorunmasında həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi. Həmçinin Müdafiə nazirinin şəxsi heyətə təbriki oxundu.*

Qışdı...

Səhərdən bəri çalpaşıq yel əsir...

Yel hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında qələbəliyə görə əsməyəydi kaş. Bu qələbəlik əsgər atalarına, analarına, bacı-qardaşlarına diqqətin, sayğının qələbəliyidi, təşəkkürlə əhatələnmiş qələbəlikdi...

Əsgər atasına, əsgər anasına, əsgər bacı-qardaşına elə gəlir ki, zaman ləng ötüşür. Ürəklərin çırpıntıları, çırpıntıların yaratdığı həyəcan bir azdan sovuşacaq. Son illərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmriylə hərbi hissələrdə keçirilən "Açıq qapı" günü sovuşduracaq, tədbirin təntənəsi sovuşduracaq, tədbirin davamı kimi əsgər yeməkxanasıyla, hamam-camaşırxana kompleksiylə, əsgər yataqxanalarıyla tanışlıq sovuşduracaq, nizami yerişlə ötüb-keçənlərin sırasında əzizini tanıyanların da, tanımayanların da könül xoşluğu sovuşduracaq, qoşa qolları oğlunun (qardaşının) kürəyində çarpazlaşanları kövrəldəcək (qürurlandıracaq) anlar sovuşduracaq...

Zəruri rituallardan sonra Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani çıxış edərək dedi ki, son illərdə ordumuzda həyata keçirilən möhtəşəm islahatlar, yeni hərbi hissələrin inşası, əsaslı təmiri şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsini təmin edib. "Zabit və əsgərlərimiz yüksək döyüş hazırlığına malikdirlər. Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm paradlar təsdiqlədi ki, ordumuz 2016-cı ilin aprelində qazanılmış zəfəri Böyük Qələbəylə tamamlamağa qadirdir."

Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxışında ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığından danışır, hər bir hərbi qulluqçunun Ali Baş Komandanın döyüş əmrinə hazır olduğunu bildirir, toplaşanları - "Açıq qapı" gününə gələnlərin timsalında ictimaiyyəti əmin edir ki, hər bir hərbi qulluqçu Ali Baş Komandanın döyüş əmrinə hazırdır, şəxsi heyətin döyüş əzmi, qələbə ruhu torpaqlarımızın işğaldan azad olunmasını təmin edəcəkdir.

Əsgər ataları, anaları, bacı-qardaşları bir daha əmin olurlar ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediklərinin gerçəkləşəcəyi günə az qalıb: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək."

Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev və Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxışlarında qeyd etdilər ki, belə tədbirlərin həm şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, həm də ordu və ictimaiyyət arasında əlaqələrin daha da saflaşmasında müstəsna əhəmiyyəti vardır. Belə ki, "Açıq qapı" günü ictimaiyyətin orduya güvəncini daha da dönməzləşdirir.

Xalq Artisti Azərinin ifasında səslənən mahnılar istər tədbir iştirakçılarının, istərsə də hərbi hissənin şəxsi heyətinin bayram ovqatını kükrətdi.

* * *

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində keçirilən "Açıq qapı" günündə çıxış edən general-mayor Hikmət Həsənov hərbi hissənin şəxsi heyətini və əsgər valideynlərini salamlayaraq, onları 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə təbrik etdi. Bildirdi ki, ümummilli lider Heydər Əliyevin sərkərdəlik bacarığı sayəsində formalaşan Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində dünyanın ən güclü orduları sırasında yer tutur. Gündən-günə güclənən ordumuz dəmir nizam-intizama, müasir silah və texnikalara, bacarıqlı hərbçi kadr potensialına malikdir.



Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək dedi: "Bu bayram Azərbaycan xalqının tarixində ən yaddaqalan, ən şərəfli günlərdən biridir. Dünya Azərbaycanlılarının Həmrəylik Günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlı ilə əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilib. Xalqımızın birliyinin nümayişi olan həmrəylik bayramı ərəfəsində "Açıq qapı" gününün keçirilməsi xalqla ordunun sıx əlaqəsini təmin edir, şəxsi heyətə ruh yüksəkliyi aşılayır. Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, ordu ilə xalqın vəhdəti dövləti daha da qüdrətli edir. İnanırıq ki, ölkə başçısının uğurlu siyasəti nəticəsində ata-baba yurdlarımızı tezliklə işğaldan azad edib, zəfər bayramını birgə qeyd edəcəyik".

Yaradılmış şəraitlə tanış olan valideynlər və əsgər yaxınları nümayiş etdirilən hərbi texnika və silahlara böyük maraq göstərdilər. Ziyarətçilər şəxsi heyətin yaşayış və məişəti üçün yaradılan şəraitlə yaxından tanış oldular, xidməti və inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkdilər.



Hərbi hissənin komandanlığı valideynlərin övladlarının xidməti ilə bağlı suallarını cavablandırdı.

Valideynlərdən bir neçəsinin düşüncəsini qeydə alırıq.

Yaradılan sosial-məişət şəraiti ilə yaxından tanış olan Oqtay Səmədov bildirdi ki, övladının qüdrətli ordunun əsgəri olmağı ilə qürur duyur. "Bu gün gördüklərimdən fərəh duydum. Ordumuzun qüdrətinin, hərbi qulluqçularımızın peşəkarlığının, əsgərlərimizin ərzaq və geyim təminatının yüksək səviyyədə olmasının şahidi oldum. Oğlum Elnur Səmədov xidmətə başlayanda narahat idim. Ancaq bu gün arxayın oldum ki, o, əmin əllərdədir. Övladlarımız üçün yaradılan şəraiti görəndə ürəyim açıldı. Sağ olsun, Ali Baş Komandanımız İlham Əliyev! Onun diqqət və qayğısı nəticəsində ordumuz gündən-günə güclənir. İnanıram ki, tez bir zamanda işğal altında olan Şuşamızı, Xankəndimizi, Laçınımızı və digər rayonlarımızı azad edəcəyik".

- Qardaşım Nihat bu gün Vətənimizin keşiyindədir, - bu sözləri "Açıq qapı" tədbirinə gələn Sadiq İbişov dedi. - Bu gün qardaşımın xidmət etdiyi hərbi hissədəyəm. Burada şəxsi heyət üçün yüksək səviyyədə şərait yaradılıb. İstərdim ki, bütün əsgər valideynləri övladlarının hansı şəraitdə xidmət etdiklərinin şahidi olsunlar. Çünki "Açıq qapı" günü əsgərlərimizin qidalanması, geyimi, yemək yedikləri və yatdıqları yerləri görmələri üçün təşkil olunur. Komandir heyəti bizləri maraqlandıran sualları ətraflı cavablandırır. Artıq dəyərli bir ənənəyə çevrilən "Açıq qapı" günü bayram sevincimizi Vətənimizin müdafiəçiləri ilə birgə qeyd etməyə zəmin yaradır. Həm qardaşım, həm də silahdaşları göstərilən qayğı və yüksək şəraitdən razılıq etdilər. Bununla yanaşı, onların nə qədər savadlı, hazırlıqlı döyüşçü kimi formalaşdıqlarını gördüm. Deyə bilərəm ki, bu cür qüdrətli ordusu olan dövlətimiz tezliklə işğal altında olan torpaqlarımızı azad edəcək.

Milli birlik Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirən tədbir rəngarəng konsert proqramı ilə davam etdi.

* * *

Soyuq qış səhəridir. Havanın şaxtalı olmasına baxmayaraq "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinin qarşısında qələbəlikdir. Respublikamızın müxtəlif bölgələrindən əsgər valideynləri, ictimaiyyət nümayəndələri, məktəblilər, veteranlar Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirilən "Açıq qapı" günündə iştirak etmək üçün hərbi hissəyə gəliblər. Hərbi hissənin ərazisi bayramsayağı bəzədilib.

**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib

(Əvvəli 4-cü səhifədə)



Polkovnik-leytenant Siyavuş Mustafayev əlamətdar gün münasibəti ilə keçirilən "Açıq qapı" gününə gələnləri salamladı. Onlara cansağlığı, torpaqlarımızın işğaldan azad olunacağı tarixi Qələbə günü arzuladı. Artıq ənənə halını alan "Açıq qapı" gününün ictimaiyyətlə ordu arasında münasibətləri daha da səmimiləşdirən tədbir olduğunu bildirən zabit qeyd etdi ki, bu gün ordu quruculuğunda qazanılan nailiyyətlər Ali Baş Komandanın rəhbərliyi altında aparılan irimiqyaslı islahatların təzahürü, orduya diqqət və qayğının bariz nümunəsidir. "Bizim güclü, müasir texnikalarla təchiz edilmiş qüdrətli ordumuz var. Aprel döyüşləri, Günnüt əməliyyatı, Silahlı Qüvvələrin və Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilən hərbi paradlar da bunu bütün dünyaya sübut etdi."

Polkovnik Ədalət Hacıyev də bayramlar münasibəti ilə zabit və əsgər heyətini, bütün Azərbaycan xalqını təbrik etdi. Bu günün ordu ilə cəmiyyət arasında əlaqələrin formalaşmasında müstəsna rolundan söz açaraq bildirdi ki, bizlər hər an Ali Baş Komandanımızın verəcəyi əmrə hazırıq.

Sonra ziyarətçilər şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış oldular, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanasına və hamam-camaşırxanaya baş çəkdilər.

Hərbi hissə ilə tanışlıq zamanı zabitlər əsgər valideynləri və yaxınlarına xidmət şəraiti,



əsgərlərin gündəlik yaşam tərzi, qida rasionu barədə ətraflı məlumat verdilər, onları maraqlandıran sualları cavablandırdılar.

Sonda əsgər valideynləri və ictimaiyyət nümayəndələri əsgər süfrəsinə qonaq oldular.

Çöhrələrə təbəssüm, ürəklərə rahatlıq verən görüşün təəssüratlarını öyrənmək üçün valideynlərə yaxınlaşarkən üzlərdəki razılığı, gözlərdəki aşıb-daşan sevinci görürəm. Söhbət zamanı valideynlərdən Ələddin Zeynalov, Xəyalə Şərifova, İlham Xəlilov, Famil Məmmədov, Ramiz Əhmədov, Məlahət Allahverdiyeva, Eldar Məmmədov və başqaları dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər. Ordumuzda ənənə halını alan "Açıq qapı" gününün keçirilməsinin çox bəyənilən, təqdirəlayiq bir hal olduğunu qeyd etdilər. "Övladlarımızın xidmət yerləri ilə yaxından tanış olub, gündəlik məişət şəraitinin yüksək səviyyədə olmasını öz gözlərimizlə gördük. Əsgərlərimizin şəraitinə baxanda adamın ürəyi açılır. Hər tərəf təmiz və səliqəlidi. Yeməkxanaya, mətbəxə baş çəkdik, burada müasir dövrün tələblərinə cavab verən avadanlıqların olduğunu, milli xörəkləri qadın aşpazların hazırladığını görəndə ürəyimiz dağa döndü. Övladlarımızla birlikdə əsgər süfrəsində nahar etdik. Çox dadlı, ləzzətli hazırlanmışdı. Biz ordumuza inanırıq".

* * *

"N" hərbi hissəsinin ərazisi bayramsayağı bəzədilib. Hər tərəfə göy, qırmızı, yaşıl bayraqlar sancılıb. Mərasimdə Müdafiə Nazirliyinin nümayəndələri, əsgər valideynləri, ictimaiyyət nümayəndələri və müharibə veteranları iştirak edirdilər.

Şəxsi heyəti salamlayan general-leytenant Rövşən Əkbərov tədbir iştirakçılarını hər iki bayram münasibətilə təbrik etdi. Qeyd etdi ki, bu gün rəhbərlik tərəfindən Azərbaycan Ordusuna göstərilən diqqət və qayğı yüksək səviyyədədir. Zabit müasir ordu quruculuğu prosesinin ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründən başladığını və bu gün Ali Baş Komandan İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini vurğuladı.

Polkovnik Mehman Kərimov çıxışında vurğuladı ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı üçün gördüyü ən böyük işlərdən biri dünyada yaşayan yurddaşlarımızın həmrəyliyini, birliyini yaratmaqdı. "31 dekabrın dünya azərbaycanlılarının həmrəylik günü kimi təsis edilməsi məhz dahi rəhbər Heydər Əliyevin təşəbbüsü ilə mümkün oldu və həmin tarixdən etibarən xalqımız bu günü bayram kimi qeyd edir. Dünyada yaşayan 50 milyondan çox azərbaycanlı bu günü böyük təntənə ilə qeyd edir. Çünki bu bayram bizim birliyimizi, bərabərliyimizi bütün dünyaya bir daha sübut edir. Bu gün hər bir azərbaycanlının bir amalı var - işğal altında olan torpaqlarımızın azad olunması. Torpaqlarımız döyüş yolu ilə işğaldan azad olunacağı təqdirdə, bütün azərbaycanlılar tək yumruq halında birləşib düşmənə zərbə endirəcək, ədaləti bərpa edəcəklər".

Təntənəli mərasim başa çatdıqdan sonra qonaqlar əsgərlər üçün yaradılan şəraitlə yaxından tanış oldular. Əsgər valideynləri şəxsi heyətin yataqxanası və yeməkxanasına baş çəkdilər. Burada yaradılan məişət şəraiti ilə tanışlıq zamanı qonaqlara əsgərlərin xidmət şəraiti, qida rasionu barədə ətraflı məlumat verildi.

Əsgər Cavidan Abdullayevin anası Minarə Abdullayeva təşkil olunan təntənəli mərasimlə bağlı fikirlərini bizimlə bölüşdü: "Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ilə təşkil olunan "Açıq qapı" günü tədbiri xalqla ordunun sıx birliyinin göstəricisidir. Ölkəmizin dörd bir yanından hərbi xidmətdə olan əzizlərini ziyarətə gələnlər bu gün burada toplaşıblar. Valideyn üçün övladının sevincini, xoşbəxtliyini görməkdən əziz bir şey yoxdur. Bu gün oğlum ömrü bir əsrə bərabər ordunun əsgəridir. Sevindirici haldır ki, bu gün xalq-ordu həmrəyliyi var. Belə tədbirlərdə valideynlər övladlarının xidmət, məişət və qidalanma şəraiti ilə yaxından tanış olmaq imkanı qazanırlar."

Əsgər atası Həbib Musayev qarşıdan gələn 2019-cu ilin hər birimiz üçün düşərli olmasını arzuladı. Qeyd etdi ki, bayram günlərini Vətəni müdafiə edən əsgər övladları ilə birlikdə qeyd etməkdən gözəl bir gün ola bilməz. "Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il dövlətimizin ən əziz və yaddaqalan bayramlarındandır. Qarşıdan gələn 2019-cu ilin ölkəmiz və ordumuz üçün düşərli il olmasını arzu edirəm. Ümid edirəm ki, 2019-cu il bizim üçün qələbə ili olacaq. Bu gün burada əsgər övladlarımız üçün yaradılan şəraitlə tanış olduqdan sonra biz bir daha əmin olduq ki, əsgərlərimizin sosial-məişət şəraiti yüksək səviyyədədir. Sıra meydanında düzülmüş silah-sursat və texnikalarımızı gördüm. Əmin oldum ki, ordumuzun inkişafı yolunda xeyli işlər görülür. Oğlumun bu gün güclü ordu sıralarında xidmət etməsi məni fərəhləndirir. Ali Baş Komandanımız İlham Əliyev və Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımı bildirirəm ki, "Açıq qapı" gününü təşkil etməklə biz valideynlərin bayram sevincini artırırlar."

* * *

Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində keçirilən



"Açıq qapı" günü tədbirində hərbi hissənin zabit, matros heyəti, valideynlər, ictimaiyyət və KİV nümayəndələri iştirak etdilər. 3-cü dərəcəli kapitan İlhamin Quliyev şəxsi heyəti və qonaqları hər iki bayram münasibətilə təbrik edərək bildirdi ki, artıq bir çox əlamətdar tarixlərdə və bayram günlərində orduda "Açıq qapı" gününün keçirilməsi ənənəvi hala çevrilib. "O cümlədən bizim hərbi hissəmiz də "Açıq qapı" günündə əsgər valideynlərinin və onların yaxınlarının, ictimaiyyət nümayəndələrinin üzünə açıq olur. Həmin gün onlar hərbi hissəmizdə yaradılan şəraitlə yaxından tanış olmaq imkanı qazanırlar. Xüsusən də, valideynlərlə söhbətlərimizdən aydın görünür ki, belə tədbirlərin mütəmadi olaraq keçirilməsi çox razılıqla qarşılanır. Bu bizi çox sevindirir."

Zabit onu da bildirdi ki, ordumuzun və Bakının işğalçılardan azad edilməsinin 100 illiyi ilə əlaqədar keçirilən paradlar bir daha göstərdi ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın müdafiə qabiliyyəti dayanmadan artır, hərbi hissələrimizin şəxsi heyəti peşəkar kadrlarla komplektləşdirilir. Bu gün ordumuzun şəxsi heyəti Ali Baş Komandanın əmri ilə torpaqlarımızın ərazi bütövlüyü və azadlığı naminə hər an döyüşə hazırdır. Hərbi anda daim sadiq qalan zabit və əsgərlərimizin mənəvi-psixoloji və döyüş hazırlığı yüksək səviyyədədir. Azərbaycan Ordusu öz gücünü aprel döyüşlərində və uğurlu Günnüt əməliyyatında bir daha göstərdi.

Bayram tədbiri ictimaiyyət nümayəndələrinin və əsgər valideynlərinin çıxışları ilə davam etdi.

Matros Miri Seyidzadənin atası, II qrup Qarabağ müharibəsi əlili Nadir Seyidov ordumuzla hər zaman qürur duyduğunu dedi: "Bu gün ordumuzun dünya orduları sırasında da öz yeri, öz çəkisi var. Müstəqilliyimizi əbədi və daimi edən ordumuz düşmən işğalında olan torpaqlarımızı tezliklə azad edəcək. Ata-baba yurdundan qaçqın və köçkün düşən soydaşlarımız öz doğma ocaqlarına qayıdacaqlar. Biz Qarabağ döyüşçüləri tez-tez cəbhə xəttində xidmət edən zabit və əsgərlərimizlə görüşürük. Onlarda olan döyüş əzmini görürük. Bu gün onlar ən müasir silahlarla döyüşməyə qadirdirlər. Bunu aprel döyüşləri bir daha təsdiq etdi. Əminliklə deyə bilərəm ki, vətənpərvər zabit və əsgərlərimizin sayəsində işğal altında olan torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanacaq. Belə bayram şənliklərimizi Şuşada, Xankəndidə, Kəlbəcərdə... keçirəcəyik".

Əsgər babası Mirhəsən Məmmədov söylədi ki, əvvəlki illərlə müqayisədə ordumuz daha da möhkəmlənib, daha müasir silahlarla təchiz olunub. "Belə tədbirlərin keçirilməsi çox vacibdir. Oğul nəvəm bu hərbi hissədə əsgərdir. Atası Qarabağ müharibəsində iştirak edib. Onda ordumuz hələ yeni-yeni yaranırdı. Torpaqlarımızda ağır müharibə gedirdi. Silah, geyim çatışmırdı. Demək olar ki, yox idi. Şükürlər olsun, bu günə. Paradda nümayiş olunan silah və texnikalar Azərbaycan Ordusuna məxsusdur. Həqiqətən də, ordumuz qürur yerimizdi. Arzu edirəm ki, əsgərlərimiz atalarının şərəfli döyüş yolunu uğurla davam etdirsinlər. Qələbə xəbərləri ilə xalqımızı sevindirsinlər."

Əsgər anası Məleykə Orucəliyeva: "Fəxr edirəm ki, "əsgər anası", - deyə məni çağırırlar. Bu günü səbirsizliklə gözləmişəm. Axı oğul övladı Vətənə əsgər böyüyür. O, Vətənin keşiyində dayanmağa borcludur. Allah bütün əsgərlərimizi qorusun."

Tədbir əsgər valideynlərinin hərbi hissə ilə tanışlığı və incəsənət nümayəndələrinin bayram konserti ilə başa çatdı.

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi:

## Azərbaycan Ordusunun mövqelərində heç bir hadisə baş verməyib

*Ermənistan mətbuatının guya Azərbaycan Ordusunun ön xətt mövqelərində atışma baş verməsi barədə yaydığı xəbərə Azərbaycan Müdafiə Nazirliyindən aydınlıq gətiriblər.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu, Ermənistan tərəfinin öz ordusundakı baş verən xaos, intizamsızlıq və özbaşınalıq hallarını gizlətmək, o cümlədən dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində mülki vətəndaşlarımızı atəşə tutmasından beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa hesablanmış ucuz təbliğatıdır.

Bildiririk ki, Azərbaycan Ordusunun mövqelərində heç bir hadisə baş verməyib və bölmələrimiz əməliyyat şəraitinə nəzarət edir.

# Hərb Tarixi Muzeyində bayram tədbiri keçirildi

*Azərbaycan Hərb Tarixi Muzeyində xalqımızın milli-mənəvi bütövləşmə arzusunu özündə təcəssüm etdirən "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nə həsr olunmuş tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət himnimiz səsləndirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tarixə dünya azərbaycanlılarının vəhdət olduğu gün kimi həkk olunan bu mötəbər günün önəmindən və tarixindən danışdı. "Xalqımızın tarixində birlik və bərabərliyi ifadə edən əlamətdar günlər çoxdur. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü Azərbaycan xalqının birlik, bütövlük duyğularının ifadəsindən doğan bir gündür. Bu gün Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, xalqımızın siyasi-iqtisadi, mədəni və digər sahələrinin tərəqqisi baxımından son dərəcə vacib amildir. 1989-cu ilin dekabrında əsası qoyulan bu mötəbər gün bir-birindən uzaq düşmüş azərbaycanlı qardaş və bacıların qovuşduğu gün olaraq tarixə yazıldı. Həmrəylik günümüz Azərbaycan xalqının müstəqillik və milli birlik duyğularının oyanmasının parlaq bir göstəricisi idi".

Ulu öndər Heydər Əliyevin xalq həmrəyliyi prinsipinə hər zaman önəm verdiyini vurğulayan muzey rəisi, bu xəttin Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini qeyd etdi. "Azərbaycanlıların həmrəylik modelinin müəllifi ulu öndər Heydər Əliyevdir. 1991-ci il ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi rəsmiləşdirdi. Sonradan Azərbaycan Ali Məclisi də 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsdiqlədi. 2001-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən dünya azərbaycanlılarının qurultayı xarici ölkələrdə yaşayan azərbaycanlıların mütəşəkkilliyinin və fəallığının artmasına müsbət təsirini göstərdi. Bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı nəticəsində dünya azərbaycanlılarının birliyinin möhkəmləndirilməsi, diaspor hərəkatının inkişafı prosesində xeyli işlər görülür. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin dünya azərbaycanlılarının birliyindən, onların ümumi səylərinin artırılmasından da asılı olduğunu dünya azərbaycanlılarına təbrikində deyir: "Əminəm ki, dünya azərbaycanlılarının həmrəyliyi bundan sonra da xalqımızın qarşısında duran bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, torpaqlarımızı tezliklə Ermənistanın işğalından azad etməyə, sürətlə dəyişən, ziddiyyətlə dünyanın çağırışlarına adekvat cavab verməyə kömək edəcəkdir. Elə bu inamla da xalqımızı və xarici ölkələrdə yaşayan milyonlarla soydaşımızı Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edirik".

Sonra Dünya Azərbaycanlılarının Həmrəylik Günündən bəhs edən sənədli film tədbir iştirakçılarına nümayiş etdirildi.

Tədbirin sonunda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi konsert proqramı ilə çıxış etdi.

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü hərbi hissədə qeyd edildi



*Həmrəylik günü xalqımızın birlik amalının simvolik günüdür. Gündən-günə daha sürətlə inkişaf edən müstəqil Azərbaycan bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzidir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimiz azərbaycançılıq məfkurəsi ətrafında milli birlik və həmrəylik nümayiş etdirirlər.*

Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni il bayramına həsr olunmuş tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nümayəndələri və hərbi hissənin şəxsi heyəti iştirak etdilər.

Öncə ulu öndər Heydər Əliyevin büstü ziyarət edildi, ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mayor İlqar Nəhmətov tədbiri açaraq qonaqları və şəxsi heyəti 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə təbrik edərək bildirdi ki, milli birlik və həmrəylik hər bir xalqın tarixi inkişafında mühüm şərtlərdəndir. "Milli birliyə nail olmayan xalqın müstəqil, azad yaşamaq imkanı da yoxdur. Milli birlik milli mənlik şüurunun dərkindən başlayır. Bu gün qloballaşan dünyada ayrı-ayrı dövlətlərin və xalqların bir-birinə sıx yaxınlaşdığı bir vaxtda milli özünüdərkin əhəmiyyəti daha aydın görünür. Azərbaycan xalqı da tarixən öz azadlığı, müstəqilliyi uğrunda mübarizə apararaq ötən əsrin əvvəllərində və sonunda bu arzusunu həyata keçirmiş, müstəqil dövlətçiliyini bərpa etmişdir."

Mayor vurğuladı ki, xalqımızın vahid ideologiya ətrafında birləşərək bu müstəqilliyi qoruması və milli özünüdərkə qayıdışı ümummilli liderimiz Heydər Əliyevin sayəsində mümkün olmuşdur. "Dahi şəxsiyyətin ümumxalq mənafeyi naminə atdığı tarixi addımlar dünyada yaşayan bütün soydaşlarımızın eyni hədəf uğrunda mübarizəsinin əsasını təşkil etmiş, onların azərbaycançılıq ideyası əsasında sıx birləşməsinin başlanğıcını qoymuşdur...".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova çıxışında da Ulu Öndərin bütün azərbaycanlılara xitabən dediyi "Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən", - kəlamını xatırladı.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixinə nəzər salan Zümrüd xanım qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi "31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərarla bu gün artıq yüksəliş mərhələsini yaşayan dünya azərbaycanlılarının vahid bayraq altında birləşməsi prosesinin əsası qoyulub. "Bu gün yüksək səviyyədə keçirilən bayram ulu öndər Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirmək qüdrətini nümayiş etdirir..."

Zümrüd Səmədova daha sonra vurğuladı ki, bu gün Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın vahid bir ideologiya ətrafında birləşməsi, ölkəmizin dinamik inkişafında onların rolunun artırılması, Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirir. "Artıq dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoymuşdur...



Dünya Azərbaycanlılarının III Qurultayında Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək təkcə dünya azərbaycanlılarının birləşdirilməsi ilə kifayətlənməmişdir, Azərbaycan və türk diasporlarının birləşərək məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparmasını tövsiyə etmişdir. Keçirilən qurultaylar bir daha göstərdi ki, Azərbaycanın inamla irəliləyərək iqtisadi artım tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrilməsi, dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırmış, onların müstəqil dövlətin xoşbəxt sabahına inamını artırmışdır...".

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün ildən-ilə daha geniş vüsət almasından, ürəyində Vətən sevgisi, milli-mənəvi birliyə sədaqəti olanlar tərəfindən güclü dəstək almasından söz açan dövlət qulluqçusu Sairə Rəsulova özünü bütün Azərbaycan əsgərlərinin mənəvi anası adlandırdı. "Mən bu gün bütün Azərbaycan anaları adından deyirəm ki, biz sizlərlə qürur duyuruq...".

Polkovnik-leytenant Elmir Məmmədov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dekan müavini Mehriban Qasımova və digərləri də Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı fikirlərini tədbir iştirakçıları ilə bölüşdülər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin musiqi sənəti fakültəsinin tələbələri - xanəndələr Məhəmməd İbrahimov, Xasay Şıxıyev, Səmistan Rəhimov, Rüstəm Rüstəmzadə, Fidan Rəhimova, Nəzakət Veysəlova, aşıq Məharət Habiloğlu ifaları ilə əsgərlərimizdə xoş ovqat yaratdılar.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Məişət şəraitimiz yüksək səviyyədədir

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də gündən-günə inkişaf gedir. Qətiyyətlə demək olar ki, artıq hərbi hissələrdə yaradılan şərait gənclərin orduya münasibətini tamamilə dəyişib. Hər bir gənc güclü ordu sıralarında xidmət etməyi, Vətənini və torpağını qorumağı özünə övladlıq borcu bilərək döyüş, atəş, fiziki və mənəvi-psixoloji hazırlıqlarını artırır. Bunların nəticəsidir ki, Azərbaycan Ordusu hazırda beynəlxalq reytinqə görə dünya miqyasında 50 ən güclü ordusu sırasına daxildir.

Son vaxtlar əsgərlərimizin məişət şəraiti tamamilə yaxşılaşdırılıb, sosial təminatları yüksək səviyyəyə çatdırılıb. Hərbi hissələrimizdə yeni qazanxana, yeməkxana, yataqxana, camaşırxana, istirahət, bərbər otaqları və hamam şəxsi heyətin istifadəsinə verilib.



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış camaşırxana diqqətimizi cəlb etdi. Ən son avadanlıqlarla təmin olunan camaşırxanadan yazı hazırlamaq istədim. Qadın operatorların səliqəli geyimi, camaşırxanadakı təmizlik göz oxşayırdı.

Laçın Abbasova beş ildir ki, hərbi hissədə mülki qulluqçu kimi işləyir. Laçın xanım bildirdi ki, hərbi qulluqçular üçün müasir tələblərə cavab verən camaşırxanada tez bir müddətdə şəxsi heyətin camaşırları yuyulur, qurudulur, ütülənir, qablaşdırılır və saxlanclara göndərilir. "Camaşırxanada müasir aparatlar quraşdırılıb. Bu da bizim işimizi olduqca asanlaşdırır və qısa müddət ərzində bütün əməliyyatlar həyata keçirilir. İstər paltarların, istərsə də yataq dəstlərinin vaxtında yuyulub-ütülənməsi əsgərin xidməti üçün vacibdir. Xoşbəxtəm ki, mənim belə mərd, cəsur və güclü oğullarım var. Onların hər biri ilə qürur duyuram. Nə qədər ki, qollarımda güc var, onlar üçün çalışacam. Çünki onlar bizləri qoruyur. Buna görə də bu işin öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik və hər zaman da edəcəyik".

Təranə Həsənova yuyulan paltarları ütüləmək işinə baxır. O bildirdi ki, əsgər balalarımızı təmiz və ütülənmiş yataq dəstləri, səliqə-sahmanlı geyimlə təmin etmək üçün çalışırıq. "Bizim kəndimiz düşmənlə təmas xəttində yerləşir. Buna baxmayaraq kəndimizin heç bir sakini düşməndən qorxmur. Çünki bizləri cəsur əsgərlərimiz qoruyur. Buna görə də kənd əhalisi rahat yaşayır, əkinçiliklə məşğul olur, toy-bayram edir. Bunun qarşısında əsgərlərimiz üçün layiqli qulluq etməyi özümüzə mənəvi borc bilirik".

Əsgərlərimizin keşiyində dayanan operatorlarımıza işlərində uğurlar arzulayıb, bərbər otağına yollandıq. Burada bərbərə aid hər cür ləvazimat gözə dəyir. Bərbərin əllərinin hərəkətlərini seyr etdikcə peşəkar olduğu açıq-aydın görünür. Onun işinin öhdəsindən bacarıqla gəldiyini müşahidə edirik. İşini bitirdikdən sonra onunla həmsöhbət oluruq. Bərdə şəhərindən ordu sıralarına çağırılan əsgər Oruc Mütəllimov bildirdi ki, əsgər səliqəsi həmişə önəmlidir. "Hərbi xidmətdə öyrəndiyimiz müsbət keyfiyyətlərdən biri də nizam-intizamlı, səliqəli olmaqdır. Bu baxımdan əsgər yoldaşlarımın saç düzümlərini həmişə təlimata müvafiq qaydada saxlayıram. Hər zaman çalışıram ki, düzəltdiyim saç düzümü əsgər yoldaşlarımın ürəyincə olsun. Çünki biz burada bir ailəyik. Unutmamalıyıq ki, hər birimizin məqsədi yalnız və yalnız işğalda olan torpaqlarımızı azad etməkdir. Tez bir zamanda Ali Baş Komandanımızın əmri ilə arzumuza nail olacağıq".

Saçını düzəltdirən əsgər Roman Zeynalov bildirdi ki, yaradılan şərait imkan verir ki, üst-başımızı daim səliqəli saxlayaq. "Saç düzümümüzü qaydaya salır, hər günün sonunda paltarlarımızı ütüləyir və bununla da sıra baxışına hazırlaşırıq. Bütün əsgər yoldaşlarım kimi mən də yaradılan şəraitdən və qayğıdan razıyam. Belə şəraiti bizlərə yaratdıqları üçün yuxarı komandanlığa minnətdarlığımızı bildiririk və dövlətimizin, ordumuzun adına layiqli əsgər olmaq üçün var qüvvəmizlə çalışırıq və hər zaman da çalışacağıq".

Saxlanc otağında isə camaşırxanadan gələn təmiz və ütülü yataq dəstləri, dəsmallar, əsgərlərin ehtiyat əşyalarının səliqə ilə yığıldığı gözümüzdən yayınmır. Bölüyün baş çavuşu gizir Famil Məmmədov qeyd edir ki, əsgərlərimizin şəxsi gigiyenası bizim üçün çox vacibdir. “Onların bütün əşyaları hər həftə yenisi ilə əvəz olunur. Köhnələri isə camaşırxanaya göndərilir. Corablarını, əl-üz sabunlarını vaxtlı-vaxtında dəyişirik. Burada yaradılan şəraiti qoruyub saxlamaq əsas vəzifəmizdir. Gördüyünüz bütün əşyalar əsgərlərindi. Valideynlər əmin ola bilərlər ki, övladları heç nədən korluq çəkmir, daim qayğı və diqqətlə əhatə olunurlar. Sağlam əsgər güclü ordu deməkdir".

“Yuxarı komandanlığın qayğısı nəticəsində sosial-məişət şəraitimiz olduqca yüksək səviyyədədir”, - deyə hərbi xidmətə Bərdə şəhərindən çağırılan əsgər İlkin Əsgərov bildirdi. - Hər həftə paltarlarımız yeniləri ilə əvəz olunur. Sanitariya qaydalarına ciddi nəzarət edilir. Belə şəraitin qarşılığında xidmətimizi düzgün təşkil etməli, torpaqlarımızın azadlığı uğrunda canımızdan, qanımızdan keçməyə hazır olmalıyıq. Komandirlərimizin sayəsində döyüş, atəş, fiziki hazırlıqlarımızı gündən-günə artırırıq. Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad edəcəyimiz günü gözləyirik.



Yeni tikilmiş əsgər yeməkxanasının dizaynı göz oxşayır. Girişdə yerləşən əlyuma yeri, salondakı səliqə-sahman, maraqlı təbiət təsvirləri, böyük ekranlı müasir televizor, yeni mətbəx avadanlıqları və s. diqqətimizi cəlb etdi. Yeməkxananın girişində qida rasionunda fəslə uyğun olaraq bütün qida növlərinin adı qeyd edilib. Şəxsi heyətin qida rasionuna yüksək kalorili qidalar daxil edilib. Əsgərlərimiz təcrübəli aşpazlar tərəfindən hazırlanan milli xörəklərlə qidalanırlar. Qida təminatının yüksək olması ilə yanaşı, aşpazların bacarığı sayəsində əsgərlərimiz evlərində olduğu kimi, dadlı və yüksək kalorili yeməklərlə qidalanırlar.

Həyat Həsənova aşpazlıq fəaliyyətindən söz açdı: "Aşpaz lazım olan ərzağın miqdarını və dəyərini hesablamağı bacarmalı, sanitariya qaydalarını, mətbəxdə çalışan işçilərin standartlara riayət etdiyinə əmin olmaq məqsədilə təchiz edilən ərzağı, istifadə olunan avadanlıqları və mətbəxi daima təftiş etməli, mətbəxdə çalışan işçiləri təlimatlandırmalı, yemək hazırlamaq sahəsində olan yenilikləri, həmçinin yeni avadanlıqlardan istifadə qaydalarını onlara nümayiş etdirməli, digər işçilərlə birlikdə ilin fəslindən və tələb olunan ədviyyatların mövcudluğundan asılı olaraq resept hazırlamalıdır. Buna görə də yaxşı aşpaz ixtiraçılıq, təsəvvür, səbr, yaradıcılıq, dad hissi, orijinal bir resept hazırlamaq qabiliyyəti, dadlı yeməyi bişirmək kimi xüsusiyyətlərə malik olmalıdır. Biz də bu istedadımızı doğma əsgərlərimizə bəxş edirik. Çalışırıq ki, hazırladığımız xörəklər onların ürəyincə olsun, anaların əlləri ilə bişirilən xörəklərdən seçilməsin. Hər zaman da çalışacağıq ki, onları öz xörəklərimizlə sevindirək və ana qayğısından əskik etməyək".

Aşpaz köməkçisi Mahirə Həsənova da bildirdi ki, hər zaman əsgərlərin könüllərini xoş etmək üçün xörəklər bişirirlər. "Çalışmışıq ki, əsgər balalarımıza ana qayğısı göstərək, çünki onlar Vətənimizi qoruyurlar. Buna görə də onların düzgün qidalanması ən başlıca şərtlərdən biridir. Qidalanma orqanizmi nəinki enerji ilə təchiz etməyə kömək edir, həm də orqanizimdəki bütün mühüm funksiyaların fəaliyyətinə yardımçı olur. Düzgün qidalanma və sağlam həyat tərzi bir-birindən ayrılmaz anlayışlardır. Əsgərlərimizin qidalanması ən yüksək səviyyədə olmalıdır. Çünki məhz onlar xalqımıza Böyük Qələbə gününü bəxş edəcəklər".

Şahidi olduğumuz yüksək məişət şəraiti bir daha sübut edir ki, ölkə rəhbərliyi tərəfindən hər bir hərbi qulluqçuya yüksək diqqət və qayğı göstərilir. Şəxsi heyətin məişət şəraitinin ən yüksək səviyyəyə çatdırılması istiqamətində daim işlər aparılır. Bu amillər isə əsgərin mənəvi-psixoloji hazırlığının və döyüş ruhunun yüksəldilməsinə köməklik edir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# “Vətən uğrunda” səyyar təşviqat dəstəsinin “Əsgərə məktub” layihəsi uğurla davam edir

*Azərbaycan əsgərinin döyüş ruhunun daha da artırılması, xalq ilə ordu birliyinin möhkəmləndirilməsinə xidmət edən "Əsgərə məktub" layihəsi çərçivəsində Azərbaycan Dövlət Aqrar, Gəncə Dövlət və Azərbaycan Texnologiya universitetlərində tədbirlər təşkil edilib.*

Müəllim və tələbələrin iştirakı ilə keçirilən tədbirlərdə "Əsgərə məktub" layihəsi haqqında ətraflı məlumat verilərək onun Azərbaycanın müxtəlif regionlarında həyata keçirildiyi diqqətə çatdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, layihənin məqsədi ictimaiyyətlə ordu arasında əlaqələri möhkəmləndirmək, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gecə-gündüz keşik çəkən, Vətənimizi düşməndən qoruyan hərbçilərə mənəvi dəstək olmaqdır.



Tədbirlərdə "Vətən uğrunda" səyyar təşviqat dəstəsinin fəaliyyətini əsk etdirən videoçarxlar nümayiş olunub. Layihə çərçivəsində həyata keçirilən fəaliyyətlər tədbir iştirakçılarının böyük marağına səbəb olub. Bu layihəyə qoşulan müəllim və tələbələr əsgərlərə yazdıqları məktubları oxuyub, onlara arzu və istək dolu ismarıc göndəriblər.

Sonda "Vətən uğrunda" səyyar təşviqat dəstəsi üzvlərinin ifa etdiyi vətənpərvərlik ruhunda mahnılar da tədbirlərə xüsusi rəng qatıb.

Səyyar təşviqat dəstəsi, eyni zamanda ön cəbhədən əsgərdən valideynlərə və əksinə valideynlərdən əsgərə cavab məktublarının çatdırılmasında vasitəçidir. Növbəti dəfə cəbhə xəttində keçirilən "Əsgər məktubu" layihəsi çərçivəsində görüşdə əsgərlərin yazdıqları məktublar səyyar təşviqat dəstəsinin üzvləri tərəfindən onların ailələrinə, yaxınlarına çatdırılıb. Anaların da oğullarına yazdıqları cavab məktubları səyyar təşviqat dəstəsi üzvlərinin vasitəsilə ünvanlara yetişib.

# 31 dekabr birlik günüdür

*Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsində, geniş dünyagörüşünə malik fərd kimi formalaşmasında ictimai-siyasi hazırlıq dərsinin çox böyük əhəmiyyəti var. Vətənpərvərlik təkcə əlində silah torpaqları müdafiə etmək deyil, həmçinin boya-başa çatdığın məmləkətin tarixi şəxsiyyətləri barədə məlumatlı olmaq və tarixi həqiqətlərini bilib nəsildən-nəslə ötürməkdir. Ordu sıralarında xidmət edən gənclərin əsl vətənpərvər ruhda böyüməsi üçün ictimai-siyasi hazırlıq dərsinin keçirilməsinə çox böyük önəm verilir.*



"N" hərbi hissəsində keçirilən ictimai-siyasi hazırlıq dərslərindən birinin şahidi olduq.

Dərsin rəhbəri leytenant Şamil Qəhrəmanov bildirdi ki, gənc yaşlarından hərbçi olmaq arzusu onun Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları sırasına daxil olması ilə nəticələndi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini də bitirən zabit bu gün güclü ordumuzun məsuliyyətli, gənc, savadlı zabitlərindəndir.

Azərbaycan Ordusunun gənc zabitlərindən olan leytenant Şamil Qəhrəmanov dərsin mövzusu ilə bağlı əsgərləri məlumatlandırdı. "Bugünkü dərsin mövzusu 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bu günün əsası 1989-cu ilin dekabrında qoyuldu. Bu tarixi hadisə həmyerlilərimizi illər sonra qovuşdurdu. Həmin ərəfələrdə İstanbulda keçirilən türkdilli xalqların konfransında bu gün dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi. Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsində olarkən dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Həmin tarixdən etibarən bu gün əlamətdar günlərdən biri kimi qeyd olunur. Bu mötəbər gün dünyanın hər bir yerində yaşayan həmyerlilərimizin birlik, vəhdət təşkil etdiyi bir gündür. Xarici ölkələrdə diasporamızı təmsil edən nümayəndələr, bu gün ilə əlaqədar olaraq tədbirlər təşkil edir, tarixi həqiqətləri dünyaya çatdırırlar".

Əsgər Rəşad Hacıyev də Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı fikirlərini bizimlə bölüşdü: "Dünya Azərbaycanlıların Həmrəylik Günü soydaşlarımızın birlik günüdür. Bu bayram dünyanın istənilən nöqtəsində yaşayan azərbaycanlıların bayramıdır. Bu sözləri Ümummilli Liderimiz 1998-ci ildə Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə müraciətində demişdi. Bu bayram qədim tarixə və böyük mədəniyyətə malik olan Azərbaycan xalqının müstəqillik əldə etdiyi andan bütün dünya azərbaycanlılarına bəxş etdiyi, ümummilli əhəmiyyət kəsb edən yeni və çox ümidverici bayramdır. Vətən müdafiəçisi olaraq bizim üzərimizə düşən əsas vəzifə xalqımızın təhlükəsizliyini, torpaqlarımızın bütövlüyünü təmin etməkdir. Bütün dünyada yaşayan azərbaycanlıları Qələbə müjdəli xəbərlə sevindirəcəyimiz günə az qalıb. Ali Baş Komandanımızın əmri ilə tezliklə ərazi bütövlüyümüz bərpa ediləcək."

Hərbi xidmətə Siyəzən rayonundan çağırılan əsgər Tacəddin Muradov da ulu öndər Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayını təşkil etməklə təkcə ölkə daxilində olan soydaşlarımız üçün deyil, həmçinin ölkə hüdudlarından kənarda olan həmyerlilərimiz üçün xeyli işlər gördüyünü vurğuladı. "2001-ci ilin noyabrında ümummilli lider Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayını keçirməklə dünyada yaşayan soydaşlarımızı azərbaycançılıq ideologiyası ətrafında birləşdirdi. Ulu Öndər sübut etdi ki, dövlətin uğurlarına aparan yol xalq və millətin birliyindən keçir."

Əsgər Məhəmməd İbrahimov və Zaur Məmmədov da bildirdilər ki, Ali Baş Komandanımızın əmri ilə aprel və Günnüt zəfərlərinin davamı olacaq Böyük Qələbə xalqımızın birliyinin daha da möhkəmlənməsinə xidmət edəcək. Ordu-xalq birliyi dünya azərbaycanlılarının həmrəyliyinin məhək daşına çevriləcək.

Bu birlik Ümummilli Liderimizin ideyalarının yaşaması, qüdrətli, inkişaf edən Azərbaycan dövlətinin müstəqilliyinin əbədi, davamlı və dönməzliyini təmin edəcək.

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

## Hərbi texnikalar, silahlar

# Sarsılmaz qılınc 2000-Armalite AR-24



Sarsılmaz qılınc tapançası Sarsılmaz şirkəti tərəfindən hazırlanır. Bu şirkət Türkiyədə yüksək keyfiyyətli silah istehsalı üzrə əla nüfuz qazanıb. Şirkətin istehsal etdiyi məhsullar dünyanın 55 ölkəsinə ixrac olunur.

Hazırda Sarsılmaz qılınc silahı Armalet ticarət markası adı altında ixrac edilir. Bu silah həm də NATO standartlarına uyğun rəsmi sertifikata layiq görülüb. Tam ölçülü Qılınc 2000 Meqa və Armalite AR-24, həmçinin Qılınc 2000 light və Armalite AR-24 Compact modeli kimi istehsal edilir. Hazırda bu silahlar Türkiyənin Silahlı Qüvvələrində istehsal olunur. Polimerdən istifadə etmədən yüksək keyfiyyətli qatışıq vurulmuş poladdan hazırlanır. Silahda 9 mm-lik Parabellum güllələrindən istifadə edilir. Silahın uzunluğu 210.5 mm, gövdəsinin hündürlüyü 118.5 mm, gülləsiz çəkisi 992 qram, maqazinin həcmi 15 patrondan ibarətdir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan sosial şəbəkələrindən əldə olunmuş məlumatlarda Xankəndini yenidən etiraz dalğalarının bürüdüyü bildirilir.

Artıq bir neçə gündür şəhərin mərkəzi küçələrində müxtəlif təbəqələrdən olan əhalinin iştirakı ilə mitinqlər, etiraz aksiyaları və yürüşlər keçirilir.

Rəsmi Yerevan müxtəlif bəhanələrlə xüsusi təyinatlı dəstələri Xankəndinə göndərsədə, həlelik görülən tədbirlər Ermənistan ictimaiyyətindən gizlədilir.

Görünür Paşinyan Yerevanda həyata keçirdiyi tədbirləri burada da təkrar etmək və "Qarabağ klanının" kökünü hakimiyyətdən birdəfəlik kəsmək fikrindədir.

* * *

Dekabr ayında Ermənistan ordusunun hərbi hissələrində baş verən özbaşınalıq və qanunsuzluq səbəbindən bir çox cinayət xarakterli hadisələr baş verib.

Ermənistan mətbuatı və sosial şəbəkələrdə yayılan məlumatlardan məlum olur ki, düşmən ordusunun 2 hərbi qulluqçusu özünə qəsd edib, biri isə xidmət yoldaşı tərəfindən güllələnib.

Altıncı dağatıcı alayının zabiti Manruq Mirzoyan özünə qarşı edilən haqsızlığa dözməyərək hərbi hissədə odlu silahdan atəş açaraq özünü yaralayıb.

Zenit-raket alayının müqaviləli hərbi qulluqçusu Vardan Şaxnazaryan isə ov tüfəngi ilə özünə qəsd edib. İlk olaraq hadisənin ailə-məişət zəminində baş verdiyi bildirilsə də sonradan araşdırma zamanı V.Şaxnazaryanın yüksək rütbəli zabit tərəfindən təhqir olunduğuna görə onun bu addımı atdığı məlum olub.

Daha bir məlumatda isə deyilir ki, döyüş növqeyində növbədə olarkən iki erməni hərbçi arasında baş verən mübahisə qanlı cinayətə səbəb olub. Üçüncü ələhiddə motoatıcı alayının hərbi qulluqçusu Artyom Movsesyan xidmət yoldaşı tərəfindən açılan atəş nəticəsində çiynindən güllə yarası alıb.

Hər üç faktla bağlı araşdırılma aparılır.

**Hazırladı:
İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## Suriya və İraqdakı terrorçu qruplaşmaların tərkibində Gürcüstan vətəndaşları da döyüşür



Hazırda Gürcüstanın 30 vətəndaşı Suriya və İraqda müxtəlif terrorçu qruplaşmaların tərkibində döyüşür.

Gürcüstan Dövlət Təhlükəsizliyi Xidməti keçən il onlardan hansınınsa ölkəyə geri qayıtması barədə məlumat aşkarlamayıb.

Son bir neçə il ərzində Gürcüstanın işğal altında olan Pankisi dərəsi adlanan bölgədən olan çeçen əsilli 20 nəfər Suriyada həlak olub. Öldürülənlərdən ən məşhuru səhra komandiri Tarxan Batiraşvilidir.

Gürcüstanın İctimai Televiziyasının xəbərinə görə, bu gün Pankisidən olan 14 yaşlı daha bir gürcü əsilli çeçen Suriyada gedən döyüşlərdə həlak olub. Yeniyetmə uzun müddət imiş ki, valideynləri ilə birlikdə Suriyada yaşayırmış. Onun İŞİD-in yaxud hökumət qüvvələrinin tərkibində döyüşdüyü barədə məlumat verilmir.

## ABŞ-da İkinci Dünya müharibəsinin 112 yaşlı veteranı vəfat edib



İkinci Dünya müharibəsinin 112 yaşlı veteranı Riçard Overton dekabrın 27-də ABŞ-da dünyasını dəyişib.

Riçard Overton həm də ABŞ-ın ən yaşlı sakinlərindən biri idi. Bir qədər əvvəl o, ağciyərlərin iltihabı səbəbindən xəstəxanaya yerləşdirilmişdi.

1906-cı il mayın 11-də Texas ştatında anadan olmuş Overton müharibə illərində Yaponiya aviasiyasının hücumu zamanı Perl-Harbor adasında xidmət etmişdi. 2013-cü ildə ABŞ administrasiyasının rəhbəri Barak Obama tərəfindən veteranlar günü münasibətilə Ağ evdə keçirilən mərasimə dəvət olunmuşdu.

## Petro Poroşenko Ukraynada hərbi vəziyyətin başa çatdığını elan edib



Prezident Petro Poroşenko Ukraynada hərbi vəziyyətin başa çatdığını rəsmən elan edib.

Petro Poroşenko bunu Ukraynanın Müdafiə və Təhlükəsizlik Milli Şurasının iclasında bəyan edib: "Ukraynada hərbi vəziyyətin müddəti uzadılmayacaq. Dekabrın 26-da yerli vaxtla saat 14:00-da hərbi vəziyyətin müddəti başa çatıb".

Qeyd edək ki, noyabrın 26-da otuz gün müddətinə Ukraynanın Odessa, Sumı, Xarkov, Nikolayev, Çerniqov, Vinnitsa, Luqansk, Herson, Donetsk, Zaporojye vilayətlərində, həmçinin Azov dənizində hərbi vəziyyət tətbiq edilmişdi.

Ukrayna Prezidentinin Ali Radaya təqdim etdiyi sənəddə ölkədə hərbi vəziyyətin 60 gün olması təklifi irəli sürülmüş, lakin Ali Radada aparılan məsləhətləşmələrdən sonra sənədə dəyişiklik olunmuşdu.

Xatırladaq ki, noyabrın 25-də səhər saatlarında Rusiya dəniz qüvvələrinə məxsus gəmilərin Kerç körfəzindən çıxan Ukrayna hərbi dəniz qüvvələrinə aid gəmi qrupuna atəş açması tərəflər arasında ciddi qarşıdurmaya gətirib çıxarıb. Ukrayna beynəlxalq təşkilatları Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etməyə çağırıb.

**AZƏRTAC-ın
materialları əsasında**

Kapitan Əliyev Vüqar Güloğlan oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1040
Nüsxə 3525